**“Hacıqabul rayon İcra Hakimiyyəti orqanının Apellyasiya Şurasının katibliyinin təsdiq olunması barədə” Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının 10 fevral 2016-cı il tarixli 21 nömrəli Sərəncamında qismən dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları haqqında nümunəvi Əsasnamə”yə müvafiq olaraq Hacıqabul rayon İcra Hakimiyyəti orqanının Apellyasiya şurasının sədrinin təklifi əsasında, Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının 10 fevral 2016-cı il tarixli 21 nömrəli Sərəncamı ilə Apellyasiya Şurasının katibliyi təsdiq olunmuşdur.

Apellyasiya Şurasının sədrinin rayon İcra hakimiyyəti Başçısına verdiyi yeni təqdimatda (təklifdə) keçən dövr ərzində Apellyasiya Şurasının katibliyinin tərkibində yer tutmuş, Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi Ruslan Şıxəliyevin vəzifəsinin dəyişməsi ilə əlaqədar onun adının katibliyin tərkibindən çıxarılaraq yerinə həmin şöbənin digər məsləhətçisi Gülnar Ələkbərova təyin edilməsi barədə Sərəncam verilməsi xahiş edilmişdir.

Göstərilənləri nəzərə alaraq, nümunəvi Əsasnamənin 4.5-ci maddəsinə əsasən

**QƏRARA ALIRAM:**

1. Apellyasiya Şurasının sədrinin təqdimatı nəzərə alınaraq Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının 10 fevral 2016-cı il tarixli 21 nömrəli Sərəncamında qismən dəyişiklik edilsin və Apellyasiya Şurasının katibliyinin tərkibi aşağıdakı kimi təsdiq olunsun.

- Mehparə Cəfərova – Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri, katibliyin rəhbəri
- Sirac Əsgərov – Hüquq şöbəsinin məsləhətçisi
- Gülnar Ələkbərova – Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi

2. Apellyasiya Şurasına tapşırılsın ki, Sərəncamın surətini Azərbaycan Respublikası Prezidenti yanında Apellyasiya Şurasına çatdırılmasını təmin etsin.

3. Apellyasiya Şurasının katibliyinə tapşırılsın ki, öz işini mövcud Əsasnamənin tələbləri əsasında qursun və Apellyasiya Şurasının sədrinin göstərişlərini icra etsin.

**Əhməd Muxtarov,**
**Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı**

Hacıqabul rayonu, 19 yanvar 2017-ci il
№ 09